**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEVİNC BƏBİR qızı QULİYEVA**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATINDA MULTİKULTURALİZMİN BƏDİİ İNİKASI

5716.01 – Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I - 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Teymur Həşim oğlu Kərimli,**<br>akademik |
| **Rəsmi opponentlər:** | **Şirindil Həsən oğlu Alışanov**,<br>filologiya üzrə elmlər doktoru, professor |
| | **Sevinc Abdulla qızı Abbasova,**<br>filologiya üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat** | **Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrası** |

Müdafiə "____" _________ 2018-ci il saat____-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı ş., H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"_________2018-ci il tarixdə göndərilmişdir.

| | |
|---|---|
| **Dissertasiya Şurasının**<br>**Elmi katibi:** | **İsmixan Məhəmməd oğlu Osmanlı,**<br>filologiya üzrə fəlsəfə doktoru |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Həyatın ən dərin və ilk baxışda görünməz olan qatlarına nüfuz etməyi bacaran, onun daxili durumunu, həm tərəqqiyə, inkişafa səbəb olan, həm də onu əngəlləyən amilləri aydın göstərən ədəbiyyatın başlıca predmeti cəmiyyət və şəxsiyyət münasibətlərinin geniş və hərtərəfli təhlili olduğundan bütün zamanlarda söz sənətindən ən müxtəlif səviyyələrdə yararlanmış, onun təsir gücünə böyük dəyər və önəm verilmişdir. İctimai-siyasi durumların ən kəskin və böhranlı dönəmlərində də insanların şüuruna bilavasitə təsir edən, güclü səfərbərlik vasitəsi hesab olunan ədəbiyyat həmişə öz funksiyasını uğurla yerinə yetirmişdir. Çünki bədii ədəbiyyat hər şeydən əvvəl bir məfkurədir, nə qədər danılsa da, ideoloji təbliğatın ən təsirli vasitəsidir. Odur ki, bütün zamanların ən kəsərli və iti təfəkkür, düşüncə qılıncı olan ədəbiyyat xalqın, millətin genetik yaddaşının köklərini aydınlatmaqla onun müasir dünyaya inteqrasiyası yoluna işıq tutmalıdır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas mövzu istiqamətləri, onun mövcud ənənələrə bağlılığı, müasir ictimai-siyasi prosesdə, həmçinin cəmiyyətin düşüncə və təfəkkürünə təsiri baxımından tutduğu mövqe, tarixin dərsləri və onlardan çıxarılan nəticələr, tarixi hadisələrin zamanımıza transformasiyası, xalqımızın milli dirçəliş uğrunda mübarizəsi və bu yolda verdiyimiz qurbanlar, qazandığımız nailiyyətlər, bütün bunların necə və hansı səviyyədə bədii əksi, bu inikasın ədəbi ab-havaya gətirdiyi yeniliklər və s. problemlər ədəbiyyatşünaslığın aktual məsələlərindəndir[1]. Son illərdə sadaladığımız mövzularla yanaşı, Azərbaycan ədəbiyyatında multikulturalizm ənənələrinin kökləri, tolerantlığın təbliği kimi təkcə ölkəmiz, dövlətimiz üçün deyil, ümumbəşəri mahiyyət daşıyan problemin əksi məsələləri də ədəbiyyatşünaslığın, ədəbi tənqid və publisistikanın ən aktual hədəflərindəndir.

Qloballaşan müasir dünyada sabitliyin, dinc yanaşı yaşamanın, qarşılıqlı zənginləşmənin ən optimal yolu multikulturalizm, tolerantlıq, qarşılıqlı anlaşma və zənginləşmə ideyalarının geniş yayılması, xalqların təfəkkür və şüurunda davamlı və sabit yer tutması, insanların həyat tərzinə çevrilməsidir. Xüsusilə, Qərb və Şərq sivilizasiyaları arasındakı qarşıdurmanın, İslam və Xristian aləmlərinin bir-biriləri ilə anlaşmaması, bir-birilərinə tab gətirməməsi, dözümsüzlük göstərmələrinin bəşəriyyətin faciə-

[1] Salamoğlu Təyyar. Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı: E.L, N RPS, 2014, 284 s.

sinə çevrilməsi təhlükəsi ilə üz-üzə dayandığımız müasir dövrdə tolerant əhvalın tərbiyə edilməsi qaçılmaz və labüd vəzifə olaraq elm və sənət adamlarının həm öz xalqı, həm də dünya xalqları qarşısındakı borcu kimi dəyərləndirilməlidir.

Təbii olaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyev də bəyan edir ki, "... multikulturalizm toqquşmanın, müharibənin, qarşıdurmanın alternativi olan yeganə yoldur. Bunun başqa yolu yoxdur! Əgər bəşəriyyət qlobal miqyasda, dünyada gedən prosesləri nəzərə almadan ortaq məxrəc tapmasa və ümumi razılaşmalar əldə etməsə, özünü böyük təhlükə ilə üz-üzə qoymuş olacaq"[1] .

Şərhi hədəfləri özündə ehtiva edən "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikulturalizmin bədii inikası" mövzusunda dissertasiya işi də məhz həm cəmiyyətin və bütövlükdə bəşəriyyətin ictimai-siyasi və mədəni həyatı, həm də ədəbiyyatşünaslıq elminin müasir səviyyəsi baxımından aktual olan problemlərdən birinə həsr olunmuşdur.

Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda minilliklər boyu dinc yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qorumuşdur. Hazırda cəmiyyətimizdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar – dövlət siyasəti əlavə olunmuşdur ki, bu da respublikamızda multikultural mühitin uğurlu perspektivlərinə gerçək zəmin yaradır.

Ümumiyyətlə, dialoq problemi bəşəriyyətin bütün tarix boyu inkişaf mərhələlərində həm də qarşılaşdığı ədəbi problemlərdən biri kimi müasir dövrdə də yeni əhəmiyyət və xüsusi aktuallıq kəsb edir.

Müasir fəlsəfi problemlər axarında mədəniyyətlərin dialoqu obyekt-subyekt kombinasiyalarının, fərdlərin qarşılıqlı təsiri, qarşılıqlı ünsiyyəti və qarşılıqlı informasiya mübadiləsinin inkişafında mühüm amil kimi özünü göstərir. Tarixən bərqərar olmuş mədəni rəngarənglik müasir transformasiyalar kontekstində yeni fəlsəfi dünyagörüşünün müxtəlif millət, mədəniyyət və inancların nümayəndələrinin qarşılıqlı əlaqə və qarşılıqlı anlaşmasına olan tələbatı şərtləndirir.

Mədəniyyətlərarası dialoq – ədəbi-fəlsəfi kontekstdə geniş əhəmiyyət kəsb edir və öz hüdudlarını aşaraq müxtəlif mədəniyyətlərin, ayrı-ayrı düşüncə tərzlərinin, Şərq və Qərbin və s. qarşılıqlı ünsiyyəti, təsiri kimi səciyyələndirilir.

---

[1] Qurbanlı Mübariz. Azərbaycan multikulturalizm modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur // Multikulturalizm: Ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1, s. 46.

Tolerantlıq, digər, başqa-yad mədəniyyətlərə və inanclara qarşı dözümlülük, dəyişkən mədəni kontekstlər, "mədəni polifoniya" şəraitində gerçəkləşə bilər. Məhz kommunikativ plüralizm mədəniyyəti müxtəlif mədəniyyətlərin "yad"ı anlaması vasitəsilə tolerant qarşılıqlı ünsiyyət imkanlarını əsaslandırır və bu zaman həmçinin mədəniyyətlərin dialoq imkanlarını da üzə çıxarır olur. Tolerant düşüncə fərqliliyin mövcudluğunun təbii hal kimi qəbul edilməsidir. Mədəniyyətlərarası dialoqun gedişində Öz ilə Yad arasında vasitəçi meydana çıxır. Odur ki, müasir dövrdə dialoq həmişə olduğundan daha çox mədəniyyətlər antologiyasında inkişaf mexanizmlərindən biri kimi həyata keçirilir. Müasir realistlər, o cümlədən mədəniyyətlərin rəngarəngliyi onlar arasındakı dialoqun bir çox baxımdan labüd və faydalı olduğunu göstərməkdədir. Multikulturalizmin nəzəri problemlərinə həsr olunmuş tədqiqatlarda bu məsələlər dərindən araşdırılmışdır. Məsələn, Roida Rzayeva yazır: "Müasir mədəni situasiyanı postmodern və ya "gecikmiş modern" kimi müəyyən etməyimizdən asılı olmayaraq, dəyişmiş şəraitə uyğun olaraq dialoqun qurulması zərurəti yaranır" [1]

Bütün bu məsələlərin müstəqillik dövrü Azərbaycan ədəbiyyatında bədii əksinin ictimai fikrin inkişafı və filologiya məsələləri baxımından tədqiqi müasir ədəbiyyatşünaslığın aktual problemlərindəndir. Yəni mövzunun aktuallığı məhz onun mahiyyətindən doğmuşdur.

**Tədqiqatın obyekti** müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikulturalizm və tolerantlıq ideyalarının bədii əksi probleminin öyrənilməsidir. Araşdırmaya cəlb edilmiş bədii nümunələrdə multikulturalizmin bir sosial-fəlsəfi problem kimi bədii inikası və həlli yollarının axtarılması, milli xarakter və kimliyimizin ən səciyyəvi xüsusiyyətlərindən biri kimi bədii təqdimini qarşıya məqsəd qoyan əsərlərin müasir dövlətçilik ideyalarımızın möhkəmləndirilməsində oynadığı rol, bəşəriyyətin ən qlobal problemi olan qarşılıqlı anlaşma, zənginləşmə, mədəniyyətlərarası dialoq və bütün bunların müstəqillik illərində yaranan Azərbaycan ədəbiyyatının bədii örnəklərində necə, hansı səviyyədə və hansı məqsədlərlə ifadəsi kimi bir çox aktual məsələlərin təhlili, dəyərləndirilməsi də tədqiqatın obyektidir.

**Tədqiqatın predmeti.** Dissertasiya işi müstəqillik dövrü Azərbaycan ədəbiyyatını əhatə etsə də, multikulturalizm və tolerantlıq ideyaları xalqımızın adi yaşam tərzi olduğundan Azərbaycan ədəbiyyatının şifahi və yazılı bədii nümunələrinə o cümlədən, dahi Azərbaycan mütəfəkkirləri

---

[1] Рзаева Роида. Постмодерн и мультикультурализм: междисциплинарный дискурс. Баку: "Элм ве тахсил", 2015, с. 3.

Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətayinin, Hüseyn Cavidin və başqa söz sənətkarlarımızın əsərlərinə də müraciət edilmişdir.

1991-ci ildən sonra ədəbiyyatımızda yaranan və milli-mənəvi dəyərlərin ədəbi-ictimai düşüncənin ən prioritet istiqamətlərindən birinə çevrildiyi müasir dövrdə tarixi yaddaşımızın bədii ifadəsinə çevrilmiş, onun oyanmasına, düzgün istiqamətə yönləndirilməsinə, müasir siyasi, iqtisadi, ictimai və sosial problemlərin səhih qiymətləndirilməsinə və dəyərləndirilməsinə həsr edilmiş, multikulturalizm və tolerantlıq ideyalarının geniş təbliğ olunduğu əsərlər bu tədqiqat işinin əsas predmetidir. Mövzu ilə əlaqədar olan elmi araşdırmalar, multikulturalizm və tolerantlığın nəzəri məsələləri, tarixi inkişafı, yayılma arealı və modelləri problemlərinə həsr olunmuş monoqrafiyalar, multikulturalizm və tolerantlıq məsələsinin araşdırılmasına dair tədqiqat əsərləri və dissertasiyalar, elmi və elmi-publisistik məqalələr, müəllifli elektron resurslar da dissertasiya işinin predmeti hesab edilə bilər.

**Tədqiqatın metodunu** mövzunun xarakterinin özü müəyyənləşdirir. Belə ki, dissertasiya işi ədəbiyyatşünaslığımızın əldə etdiyi uğurlara, metodoloji konsepsiyalara istinad edərək geniş elmi təhlillər üçün əlverişli şərait yaradan tarixi-müqayisəli metoddan istifadə əsasında yazılmışdır. Multikulturalizm və tolerantlıq mövzusunun ayrı-ayrı məqamlarını təhlil və tədqiq etmiş tədqiqatçıların, eləcə də müasir ədəbiyyatşünas alim və tənqidçilərin mövzu ilə əlaqədar araşdırmalarının nəticələri və nəzəri müddəaları müqayisəli şəkildə sərf-nəzər edilmiş, lazım bilindikdə polemikaya da cəhd olunmuşdur. Eyni zamanda, iş prosesində, yeri gəldikcə, tədqiqatın predmetinə çevrilmiş ədəbi-bədii nümunələr sistemli şəkildə araşdırılmışdır.

**Mövzunun tədqiqi tarixini** iki istiqamətdə araşdırılmağı məqsədəuyğun bildik. Birinci istiqamət – multikulturalizm və tolerantlıq ideyalarının ayrı-ayrı nəzəri aspektlərinə həsr edilmiş tədqiqat əsərlərinin öyrənilməsini, ikinci istiqamət isə müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikulturalizm ideyalarının bədii əksi probleminin araşdırılmasına aid elmi əsərlərin nəzərdən keçirilməsini əhatə edir. Müasir dövrdəki millətlər və dinlərarası multikultural əlaqələr çox qədimlərə gedib çıxsa da, multikulturalizm bir ideologiya və ictimai-fəlsəfi fikir kimi son illərdə öyrənilməyə başlanmış, onun tarixi qaynaqları, nəzəri əsasları, formalaşmaqda olan ayrı-ayrı modelləri sistemləşdirilmişdir[1]. Ümumilikdə tolerant əhvali-ruhiyyə, yaşam tərzi, multikultural dəyərlərə önəm verilməsi, müxtəlif mədəniyyət, dil və din nümayəndələrinin dinc yanaşı yaşaması

[1] Əhmədov Ramin. Azərbaycan ədəbiyyatı tarixi: XIX-XX əsr Azərbaycan ədəbiyyatında multikulturalizm meyilləri. Bakı: ADPU, 2017, s. 3.

xalqımız üçün doğma, anlaşılan bir yanaşma olsa da, ədəbi əsərlərimizdə bu ideyanın saysız-hesabsız təcəssüm şəkilləri ilə rastlaşsaq da, bilavasitə müstəqillik dövründə Azərbaycan ədəbiyyatında multikulturalizm və tolerantlığın təbliği baxımından nümunə ola biləcək əsərlərin tədqiqinə həsr olunmuş ayrıca tədqiqat əsərləri, monoqrafiyalar yazılmamışdır. Bununla belə, son dövrlərdə dövlət siyasətinin də bilavasitə təsiri ilə dövri və elektron mətbuatda, elmi dərgi və jurnallarda məqalələr dərc edilmişdir. Multikulturalizmin Azərbaycan ədəbi-fəlsəfi və ictimai fikrində öyrənilməsi tarixindən danışarkən, təəssüf ki, o qədər də geniş, əhatəli ədəbiyyat və materiallarla rastlaşmırıq. Ancaq son illərdə yazılmış dəyərli araşdırmalar da vardır.[1]

---

[1] Nəcəfov Etibar. Müxtəlif Ölkələrdə Multikulturalizm Siyasətinin Müqayisəli Təhlili // Multikulturalizm: nailiyyətlər və problemlər. http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258; Əlizadə Akif. Dəqiq ideoloji hədəf. "Elm" qəz., Bakı, 2016, 1 aprel; Abdullayev Kamal. Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək... // Multikulturalizm. Ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1; Qurbanlı Mübariz. Azərbaycan multikulturalizm modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur // Multikulturalizm: Ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1; Cavid. Azərbaycanda multikulturalizm. "Xalq Cəbhəsi" qəz., Bakı, 2016, 14 yanvar; Rzayeva Roida. Dialoqun fəlsəfəsi və multikulturalizm. "Elm" qəz., Bakı, 2016, 11 mart; Salmanlı Rəhman. Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=91662**;** Abdulla Kamal. Həpimiz bir günəşin zərrəsiyik // Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. I kitab. Bakı: Mütərcim, 2016; Azərbaycan multikulturalizmi demokratiya və mədəniyyət münasibətlərinin inkişafına parlaq örnəkdir. Paris, 14 mart, AZƏRTAC. http://azertag.az/xeber/A-zerbaycan_multikulturalizmidemokratiya_v-e_medeniyyet_-munas-ibetlerin-ini-nkisafina_parlaq_ornekdir-35489#.VucNJ8tBxn4; Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi. "Azərbaycan" qəz., Bakı, 2016, 10 mart; Qasımoğlu Nəriman. Multikultural irsimizdə dini əks-səda // Multikulturalizm: Ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 4; İsmayıllı Sevda. Çoxmədəniyyətli, çoxdüşüncəli, çoxsəsli cəmiyyətin ideal modeli: Sərbəst insanlar ölkəsində // Multikulturalizm: Ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1; Nəcəfzadə Əzizağa, Həsənov Əkrəm. Seyid Əbülqasim Nəbatinin yaradıcılığında multikultural dəyərlər // AMEA-nın Xəbərlər məcmuəsi. Humanitar elmlər seriyası. 2016, № 2; Məmmədzadə İlham. Multikulturalizm fəlsəfi problem və ideologem kimi // AMEA-nın Xəbərlər məcmuəsi. I c., 2014, № 2; Əzizova Elnurə. Dini dözümlülük, yoxsa fərqliliklərin vəhdəti: Azərbaycanın tolerantlıq modelinin əsas göstəriciləri // Azərbaycanda tolerantlıq ənənəsi. Bakı: Nurlar NPM, 2015; Həbibov Aslan. Azərbaycanın cənubunda dini tolerantlıq və ya birlikdə yaşama mədəniyyəti // Azərbaycanda tolerantlıq ənənəsi. Bakı: Nurlar NPM, 2015; Габиббейли Иса. На путях мультикультурализма: историко-литературные традиции и современная эпоха // Мультикультурализм: тенденции и реальность. Баку: Элм, 2016; Əhmədov Ramin. Azərbaycan ədəbiyyatı tarixi: XIX-XX əsr Azərbaycan ədəbiyyatında multikulturalizm meyilləri. Bakı: ADPU, 2017 və s.

Ümumilikdə, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikultural dəyərlər və tolerantlığın bədii əksi mövzusu geniş və əhatəli tədqiqatın obyekti olmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında dövlətimizin irəli sürdüyü və bütün dünya xalqlarının maraqlarına hörmət və ehtiram sərgiləyən siyasətin prioritet məsələlərindən olan multikulturalizm ideyalarının bədii əksinin elmi-nəzəri prinsiplərinin, ideya istiqamətlərinin, təzahür formalarının müasir ədəbi-tarixi proses kontekstində araşdırılması və ta qədimdən Azərbaycan ədəbiyyatının aparıcı istiqamətlərindən olduğunun əsaslı şəkildə təsdiq edilməsi tədqiqat işinin başlıca məqsədidir. Dissertasiya işində qarşıya qoyulan məqsədə çatmaq üçün əsas etibarilə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

- dünya sosial-fəlsəfi fikrində multikulturalizm anlayışının tarixinin nəzərdən keçirilməsi;
- multikulturalizmin mövcud modellərinin ümumi səciyyəvi xüsusiyyətlərinin aydınlaşdırılması;
- multikulturalizmin Azərbaycan modelinin tipik xüsusiyyətləri və onun azərbaycançılıq ideyasına əsaslandığının əyani misallarla isbat edilməsi;
- müstəqillik dövründə yaranan Azərbaycan ədəbiyyatının ən başlıca ideya mövzu istiqamətlərinin müəyyənləşdirilməsi;
- müasir ədəbiyyatda cəmiyyətimizin sosial həyatının ən mühüm məqamlarının və ictimai-fəlsəfi problemlərinin bədii əksinin elmi təhlil süzgəcindən keçirilməsi;
- humanist dəyərlərin zənginləşməsində və yayılmasında multikulturalizmin rolu və Azərbaycan ədəbiyyatında ənənələrinin müəyyənləşdirilməsi;
- bədii ədəbiyyat – tolerantlıq və sosial ədalət təbliğinin mühüm vasitələrindən biri kimi tezisini Azərbaycan ədəbi örnəkləri əsasında isbatlanması;
- multikultural dəyərlərin və tolerant yaşam tərzinin müasir ictimai-siyasi, eləcə də mənəvi-psixoloji problemlərin ifadəsinin əsas vasitəsi kimi öyrənilməsi;
- müstəqillik dövrü Azərbaycan ədəbiyyatının müxtəlif janrlarında öz əksini tapmış tolerantlıq mühitinin bədii təqdiminin təhlil və tədqiqə cəlb edilməsi;
- xalqımızın və klassik sənətkarlarımızın hələ uzaq keçmişdə tolerant, multikultural ənənələrə malik olduğunun ədəbiyyatımızda işıqlandırılmasının təhlili;

- Azərbaycan gerçəkliyində multikulturalizmin yerinin müəyyənləşdirilməsi;

- multikulturalizmin alternativsizliyinin müstəqillik dövrü ədəbiyyatımızda bədii şəkildə əks etdirilməsinin özəlliklərinin aydınlaşdırılması;

- Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra multikulturalizm və tolerantlıq ideyalarının ədəbi və ictimai düşüncənin ifadə tərzində oynadığı rolun, onun yazıçı üçün yaratdığı imkan və üstünlüklərin özəlliklərinin, yəni bu mövzuya müraciətin obyektiv və subyektiv səbəblərinin incələnməsi, son onilliklərdə yaranan bədii örnəklərin başlıca məziyyətlərinin müqayisəli təhlil süzgəcindən keçirilməsi;

- bədii nümunələrdə fərdin taleyinin fonunda xalqın, millətin, dövlətin multikulturalizm ideyalarının yayılmasına və təbliğinə verdiyi önəmin aşkara çıxarılması;

- müasir dövrün ən prioritet məfkurə istiqaməti olan tolerant ideyaların bədii əksi məsələsində müəllif mövqeyinin təhlili;

- multikultural və tolerant dəyərlərin müstəqillik dövrü Azərbaycan ədəbiyyatında bədii əksinin elmi dəyərləndirilməsində çağdaş tarixi-fəlsəfi və başqa sinergetik tədqiqatların əhəmiyyətinin müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik illərində Azərbaycan ədəbiyyatında multikulturalizm və tolerant dəyərlərin bədii əksi problemi ayrıca geniş tədqiqatın obyekti olmamışdır. Heç bir tədqiqat işində bu illərdə yazılmış bədii örnəklərə sözügedən ideyaların təbliği və yayılması baxımından yetərincə qiymət verilməmişdir. Təqdim olunan tədqiqat işində müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikulturalizmin təcəssümü ilk dəfə olaraq bir ədəbi vasitə kimi, müasir cəmiyyətin sorğularına, ideya axtarışlarına cavab verə biləcək, yol göstərəcək bədii fəndlərdən biri kimi araşdırılır. Dissertasiyanın ən mühüm elmi yeniliyi də məhz budur. Ümumbəşəri və qlobal əhəmiyyəti olan bu mövzuya müraciət etmək yalnız bir ədəbi dəb deyil, yazarın həyata, cəmiyyətə münasibətini bildirmək üçün onun əlində olan ən güclü silahdır. Tədqiqatda müraciət olunan bədii nümunələr məhz mədəniyyətlərin dialoqu, ayrı, fərqli milli dəyərlərin bir arada mövcudluğu, "yad" olana dözümlü, anlayışlı münasibət, başqasının olandan qarşılıqlı şəkildə faydalanmaq və s. kimi məsələlərin ədəbi müstəviyə gətirilməsi prinsipləri prizmasından ilk dəfə olaraq filologiya üzrə fəlsəfə doktorluğu dissertasiya işinin obyekti kimi təhlilə cəlb edilmişdir ki, bu da dissertasiyanın elmi yeniliklərindən hesab oluna bilər.

Dissertasiyanın elmi yeniliyi həm də burada qoyulan problemlərin yeniliyi ilə səciyyələnir: "multikultural və tolerant dəyərlərin qədimdən Azərbaycan xalqının həyat tərzi olması və bunun ədəbi nümunələrdə bədii

əksi”, “milli kimlik və milli identiklik problemi”, “genetik yaddaşın oyanması”, “tarixin dərsləri”, “keçmişin müasirliyə xidməti” və s. kimi problemlər ilk dəfə olaraq məhz bu tədqiqat işində qoyularaq konkret bədii materiallar əsasında və yalnız ədəbi nümunə kimi deyil, həm də bədii yaddaş mənbəyi kimi təhlil edilir.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Tədqiqat işi həm ədəbiyyatşünaslığın ən mühüm problemlərindən birinə, həm də ictimaiyyətin elmi-kütləvi maraq dairəsində və diqqət mərkəzində olan məsələyə həsr olunduğundan elmi-nəzəri və təcrübi əhəmiyyətə malikdir. Belə ki, dissertasiya işinin nəticələrindən Azərbaycan ədəbiyyatı tarixi, müstəqillik dövrü ədəbiyyatımızda multikultural dəyərlərin bədii əksi və s. bu kimi istiqamətlərdə elmi-nəzəri araşdırmalar aparan tənqidçi və ədəbiyyatşünaslar istifadə edə bilərlər. Həmçinin universitetlərin filologiya fakültələrinin müəllim və tələbələri də ədəbiyyat tarixi və müasir ədəbiyyatın tədrisi prosesində tədqiqat işindən yararlana bilərlər. Təqdim olunan dissertasiya ədəbiyyatda multikulturalizm motivlərinin bədii inikası problemi ilə tanış olmaq üçün məqsədyönlü mütaliə ilə məşğul olanlar üçün də faydalı ola bilər.

**İşin aprobasiyası.** Dissertasiya işinin mövzusu Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında müəyyənləşmiş, Universitet Elmi Şurasında, Filologiya Problemləri üzrə Respublika Əlaqələndirmə Şurasında təsdiq edilmişdir. Dissertasiyanın elmi məzmununu əhatə edən əsas müddəaları, başlıca elmi yenilikləri kafedranın seminarlarında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, həmçinin müəllifin xarici ölkənin nüfuzlu elmi nəşrində dərc etdirdiyi elmi məqalələrində, onun bir sıra beynəlxalq və respublika səviyyəli elmi simpozium və konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın, həmçinin internet resurslarının siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun tədqiq olunma səviyyəsi araşdırılır, işin obyekti və elmi qaynaqları müəyyənləşdirilir. Eyni zamanda, burada dissertasiya işinin əsas məqsədi, həmin məqsədə çatmaq üçün qarşıya qoyulan vəzifələr müəyyən edilir,

araşdırmanın nəzəri-metodoloji əsasları açıqlanır, işin elmi yeniliyi, praktik əhəmiyyəti əsaslandırılır, strukturu barədə yığcam məlumat verilir.

**“Multikulturalizm və onun Azərbaycan ədəbiyyatında ənənələri”** adlanan I fəsil iki yarımfəsildən ibarətdir. **“Dünya sosial-fəlsəfi fikrində multikulturalizm anlayışı”** adlanan I yarımfəsildə bəşər tarixində tolerantlıq, plüralizm, multikulturalizm ideyalarının oynadığı müstəsna roldan geniş bəhs edilir.

Müasir dövrdə mədəni plüralizm və onun inkişafı bəşəriyyətin xilas yollarından biri olaraq dərk edilir. Artıq demokratik fikirli düşüncə və elm adamları etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq dövlətin hər bir vətəndaşının hüquq və azadlığına hörmətlə yanaşmanı həmin dövlətin özünün sabitliyinin və gücünün zəmini kimi qiymətləndirirlər. Çünki multikultural dünyagörüşünə, tolerant baxışa əsaslanmış siyasət yürüdən dövləti yalnız onun siyasi elitası və ölkənin “köklü” milli mənsubları deyil, həmin cəmiyyətdə öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək kimi bərabər hüquqlara malik olan milli və dini azlıqlar da dəstəkləyir.

Ümumiləşdirilmiş şəkildə ifadə etsək, multikulturalizm – cəmiyyətdə razılıqla qarşılanan pozitiv sosial təzahürdür. Belə ki, etnik münaqişələrin qarşısının alınması, xalqların və millətlərin bir-birinə etimadının möhkəmlənməsi cəmiyyətin inkişafı üçün hər cür münbit zəmin yaratmış olur.

Bu gün dünyada ən çox maraq doğuran, diqqəti çəkən və müzakirə mövzusuna çevrilən multikulturalizm modellərindən biri də multikulturalizmin Azərbaycan modelidir. Qədim və zəngin keçmişə malik olan xalqımızın keçdiyi tarixi yola nəzər salsaq, bu torpaqda ən mürəkkəb sosial-mədəni dəyişikliklər şəraitində belə, yerli, köklü xalq tərəfindən müxtəlif dilli və inanclı millətlərlə dinc yanaşı yaşamaqda problemlərin, demək olar ki, olmadığını görürük.

Azərbaycanda multikultural cəmiyyətin formalaşması tarixinə nəzər salsaq, bu mütərəqqi ideyanın, ənənənin köklərinin tarixin dərinliklərinə gedib çıxdığını görərik.

Akif Əlizadə ölkəmizdə müasir anlamda dərk edilən sabit çoxmillətli mühitin yaranmasını, çox doğru olaraq, ilk növbədə XIX əsrdən başlayaraq Bakının iqtisadi-strateji əhəmiyyətinin artması, qonşu ölkələrdən, xüsusən də İran və Rusiyadan, hətta Avropadan buraya işçi qüvvəsinin axını ilə əlaqələndirir, bu prosesə qarşılıqlı əlaqələr rakursundan baxaraq yazır: “...Müasir Qərbin miqrantlara göstərdiyi münasibətdən fərqli olaraq o zaman xalqımız ona qucaq açdığı insanları olduqları kimi qəbul

etdi, onlara mədəniyyətlərini, dinlərini, dillərini qoruyub saxlamaq üçün hər cür şərait yaratdı. Həmin dövrdə Bakıda, Gəncədə, Xaçmazda, Şəmkirdə və digər şəhərlərimizdə tikilmiş və hazırda dövlət tərəfindən qorunan və bərpa olunan müxtəlif dinlərə aid məbədlər buna əyani misaldır. Bütün bunlar onu sübut edir ki, sağlam düşüncə süni şəkildə yarana bilməz, hər bir hadisənin mənasını onu ərsəyə gətirən fərdin, yaxud bütövlükdə xalqın mentalitetində axtarmaq lazımdır"[1].

Bir çox dövlətlərdən fərqli olaraq, Azərbaycanda multikultural cəmiyyət, tolerant əxlaq rəsmi sərəncam və fərmanlarla, zorən, xalqın iradəsi əksinə bərqərar olmamışdır. Əksinə, bu proses, belə demək mümkündürsə, əks istiqamətdə getmiş, məhz millətin yaşam tərzindən, mentalitetindən, daxili-mənəvi keyfiyyətlərindən qidalanaraq, güc alaraq bu gün ən yüksək səviyyəsinə çatmış və xalqın, millətin hərtərəfli inkişafını, gələcəyini düşünən dövlətin də dəstəyini qazanmışdır. "Xalqımızın tarix boyunca topladığı bu nadir təcrübəsi Ulu Öndər Heydər Əliyevə imkan verdi ki, tolerantlıq və multikulturalizmi XX əsrin sonlarında müstəqillik əldə etmiş Azərbaycanın dövlət strategiyası kimi qəbul etsin və bu siyasət 2016-cı ili "Multikulturalizm ili" elan edən möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir"[2].

I fəslin ikinci yarımfəsli **"Humanist dəyərlərin zənginləşməsində və yayılmasında multikulturalizmin rolu və Azərbaycan ədəbiyyatında ənənələri"** adlanır.

Multikultural və tolerant dəyərlər ümumbəşəri xarakter daşıyır və bu dəyərlər İslam dünyasının bir parçası olan, milli-mənəvi keyfiyyətlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayan Azərbaycanda özünün ən uğurlu ifadəsini tapmışdır.

Multikultural dəyərlərə əsaslanan, hikmət və mərifət xəzinəsi olan Azərbaycan ədəbiyyatı bütün əsrlər boyu humanizm mövqeyində dayanmış, insanpərvərlik, ədalət carçısı, birlik və bərabərlik kimi insani dəyərlərin təbliğinə çox böyük önəm vermişdir. Bu dəyərlərin bədii təqdim üsullarından biri də multikultural dünyagörüşü olmuşdur. Xüsusilə, islamın qəbul edilməsindən sonra bu kontekstdə Azərbaycan ədəbiyyatında daha fundamental əsərlərin yarandığını görürük. Bu ənənə ədəbiyyatımızda davamlı olaraq yaşamış və bizim günlərə qədər gəlib çıxmışdır.

Klassik Azərbaycan ədəbiyyatını təmsil edən şair və yazıçıların çoxu multikultural düşüncə sistemindən qaynaqlanan mənəvi dəyərlərə

---

[1] Əlizadə Akif. Dəqiq ideoloji hədəf // "Elm" qəz., Bakı, 2016, 1 aprel , s.1-4.
[2] Yenə orada.

əsərlərində geniş yer vermiş və onları yaymış, oxucularına təlqin etmiş, aşılamışlar. Kamal Abdullanın da yazdığı kimi, “multikultural əhvalın, tolerant durumun klassik ədəbiyyatımızda əsrlər boyu formalaşan və konkret bədii nümunələrdə yaşayan təzahürü çoxşaxəli və çoxistiqamətlidir” [1].

Buna ən gözəl sübut isə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığıdır. Hələ doqquz əsr əvvəl yaşayıb-yaratmış, ədəbi irsi bəşəri ideyalar, humanizm, əlahiddə götürülmüş millət və xalqa deyil, bütövlükdə dünyaya və insanlığa sevgi hisləri ilə zəngin olan dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı ədəbiyyatımızda multikultural ənənələrin nə qədər dərin və qədim tarixə malik olduğunu göstərən ən parlaq nümunədir.

Dahi şair sözün gücü ilə bütün sərhədləri, zaman və məkan, millət və xalq, din və dil sədlərini aşmağın mümkünlüyünü göstərdi. Bu isə ilk növbədə hər cür irqçilik və millətçiliyin fövqündə dayanan yüksək mədəniyyətin təcəssümü idi. O mədəniyyət ki, bu gün hətta siyasət də ona möhtacdır.

Şair xüsusilə, “Yeddi gözəl” və “İsgəndərnamə” poemalarında bir sıra xalqların nümayəndələrinin parlaq surətlərini yaratmışdır. Təsadüfi deyil ki, dahi Nizaminin bu əsərlərini dünya xalqlarının mədəniyyətlərini bir araya gətirən əsərlər adlandırırlar. Bütün bunlar qüdrətli sənətkarın böyük ideallar carçısı və yüksək multikultural düşüncə sahibi olmasını açıq-aşkar şəkildə ortaya qoyur.

“**Müstəqillik dövrü Azərbaycan ədəbiyyatinda multikulturalizm və tolerantlıq dəyərlərinin bədii əksi”** adlanan II fəsil iki yarımfəsildən ibarətdir. İlk yarımfəsil “**Tolerantlıq və sosial ədalət multikulturalizmin əsas prinsipləri kimi”** adlanır.

Azərbaycan xalqı hər zaman öz dəyərlərini qiymətləndirmək və uca tutmaqla yanaşı, başqasının milli-mədəni və dini örnəklərinə də daim hörmət və ehtiramla yanaşmış, tarixin bütün dövrlərində qarşılıqlı ünsiyyət, qarşılıqlı faydalanma şəraitində mövcud olmağa üstünlük vermişdir. Yəni bu gün Azərbaycan dövlətinin prioritet siyasi kursu kimi özünü göstərən multikulturalizm əsrlər boyu xalqımızın təfəkküründə iz salmış düşüncə tərzinin bir ifadə formasıdır.

Bütün bunların ən gözəl sübutu isə xalqımızın əsrlərin dərinliklərindən süzülüb gələn ədəbi-bədii irsi, söz xəzinəsidir. Ədəbiyyat tarixi-

[1] Abdulla Kamal. Həpimiz bir günəşin zərrəsiyik // Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. I kitab. Bakı: Mütərcim, 2016, s. 3

mizin hər səhifəsi ümumbəşəri dəyərlərlə zəngin olan, bütün kainatı bütöv bir vahid kimi dərk edən və onu düşündürən bədii örnəklərlə zəngindir.

Xalqımızın qəhrəmanlıq dastanları sırasında yer alan ən qədim yazılı abidəsi "Kitabi-Dədə Qorqud" obrazlarının həyatında multikulturalizm yaşantılarının necə yer aldığına dissertasiyada ayrıca diqqət yetirilmişdir.

Azərbaycan ədəbiyyatının ən müqtədir nümunlərində başqa dinlərin müqəddəslərinə doğma münasibətin şahidi oluruq. Məsələn, xristianların ilahiləşdirdiyi İsa Məsihi azərbaycanlılara doğmalaşdıran qaynaqlardan biri dahi şairimiz Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasıdır.

İsa Məsihin xatırlanmasına İmadəddin Nəsiminin şeirlərində də rast gəlirik. Səbəb isə onun hürufilik əqidəsi ilə bağlıdır. Məsələ bundadır ki, Quranda "Tanrının Məryəmə atdığı kəlmə" kimi tanıdılan İsa Məsihə İncildə də Tanrı sözü kimi tərif verilir. Nəsimi özünün haqq sözünü Tanrıdan gələn haqq kəlməsi kimi car çəkdiyindən İsanın biri digərinə uyğun bu islam və xristian teoloji təqdimatından yararlanmışdır.

Digər bir klassik Azərbaycan şairi, hökmdar, Səfəvilər dövlətinin banisi Xətainin şeirlərində də İsa Məsihə müraciətlər var. Sevgili qadına "Məsiha" müraciəti ilə edilən xitab tanrı-bəndə münasibətləri silsiləsindən, İsa Məsihin sevgi təlimi kontekstində dini anlamda bir assosiasiya da yaradır, İsanın mübarək və məhrəm obrazını azərbaycanlı oxucuya sevdirə bilir.

Azərbaycanlıların multikultural şüuraltısında İsa Məsihin peyğəmbər yeri o qədər böyükdür ki, bunun bir nümunəsini on yeddinci əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Rüknəddin Məsud Məsihinin ləqəbində də görürük. O, dövrünün tanınmış şairi olmaqla yanaşı, həm də həkim imiş. Bizə gəlib çatan əsəri ana dilində yazdığı "Vərqa və Gülşa" poemasıdır.

Azərbaycanlıların multikulturalizmi sonrakı dövrlərin, Rusiya işğalına məruz qaldıqları zamanların da sınağından uğurla çıxdı. Çar Rusiyasının dini ədavət yayan imperiya siyasəti Azərbaycan ərazisində çoxkonfessiyalı mühitdə problemlər yaratsa da, bunlar cəmiyyətdə dərin kök sala və əhalinin şüuraltısına əsrlər uzunu möhürünü vurmuş multikulturalizm dəyərlərini xələldar edə bilmədi. İsa Məsih şəxsiyyəti Azərbaycanın görkəmli aydınları, sənət adamlarının şüurunda əzəlki doğmalığını saxladı və əsərlərində təbliğ edildi. Bunun ədəbi irsimizdə əksini tapan gözəl nümunələri var. Onlardan biri də Hüseyn Cavidin Şeyx Sənan dramıdır.

Bu ənənələri ədəbiyyatımızın bütün mərhələ və dönəmlərində görə bilirik. XX əsr Azərbaycan şeirinin görkəmli nümayəndələrindən olan Abdulla Şaiq şeirlərindən birini "Hamımız bir günəşin zərrəsiyik" adlandırmışdır. Onun üçün dünyada xeyir (insan) və şər (insan) vardır, bunun xaricində insanlar heç nə ilə fərqlənmirlər: Yer kürəsi bir, Günəş, Ay birdir, hər kəsə onlardan eyni dərəcədə pay düşür. Şair ürək ağrıdan etiraz səsini ucaldaraq bu gerçəkliyi unudan, qəlblərini bəd niyyətlər, rəhmsizliklərlə daşa döndərən insanlara səslənərək bəşəriyyətin unudulduğunu və artıq bu ədavətlərdən əl çəkməyin zamanı gəldiyini söyləyir.

Azərbaycanda multikultural mühiti təhdid edən illərdə bu ağır imtahan dövrünün reallıqlarını əks etdirən əsərlər içində dünyada bestsellerə çevrilmiş məşhur bir Azərbaycan romanı da var: "Əli və Nino". Müsəlman Əli ilə xristian Ninonun sevgi macərası üzərində qurulan romanda Azərbaycan paytaxtı Bakıda yaranan multikultural bir mühitin maraqlı təsvirləri vardır. Bu mühitin qəhrəmanları arasında hətta etnik azərbaycanlılıarın da hamısı müsəlman deyil. Onlardan biri bəhailik dinini qəbul etmiş məşhur Bakı milyonçusu, neft maqnatı Ağa Musa Nağıyevdir.

Bu kimi bədii nümunələrdə ən müxtəlif formalarda təzahürünü tapan tolerant əhval-ruhiyyə, multikultural dünyagörüşü həqiqətən də xalqımızın əxlaqi keyfiyyətinə çevrilərək milli identikliyimizin göstəricisi olan dəyərlərimizlə birgə bugünkü nəslə də ötürülmüşdür. Klassik Azərbaycan ədəbiyyatında formalaşıb intişar tapan bəşəri ideyalar, sosial ədalət prinsiplərinin təbliği müasir söz sənətkarlarımızın - Anarın, Elçinin, Kamal Abdullanın, Ramiz Rövşənin, Aqil Abbasın, Mustafa Çəmənlinin, Elçin Hüseynbəylinin, Şəmil Sadıqın və imzasını ədəbiyyatda təsdiqləmiş onlarla qələm sahibinin əsərlərində uğurla davam etdirilir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının yaradıcılarının, yəni gənc yazarların həm milli identik keyfiyyətlərimizin qorunub saxlanılması, həm də eyni zamanda dünyaya inteqrasiya, multikulturalizm, tolerantlıq kimi aktual problemlərə münasibəti maraq doğurur.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının multikultural istiqamətini yönləndirən səciyyəvi cəhətlərdən biri də onun dünyanın bir insana münasibəti və ya bir insanın dünyaya münasibəti ideyasını prioritet kimi qəbul etməsi və dəyərləndirməsidir. Müasir ədəbi örnəklərimizdə Azərbaycanın milli-mənəvi dəyərlərinin təkcə türk-müsəlman mədəniyyətinin deyil, ümumdünya, ümumbəşəri mədəniyyətinin də tərkib hissəsi olmasının ifadəsi onun dünyaya bir vahid bütöv kimi yanaşmasından irəli gəlir. Bu məqamda Ulu Öndər Heydər Əliyevin türkdilli xalqların və təbii ki, Azərbaycan xalqının dünyaya, ümumbəşəri mədəniyyətə verdiyi töhfə-

lərin dəyərini vurğulayan sözlərini xatırlamaq yerinə düşərdi: "Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiyanın böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər…Türk xalqlarının mədəniyyətləri, o cümlədən Azərbaycanın milli mədəniyyəti nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir"[1].

II fəsilin ikinci yarımfəsli **"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında tolerantlıq mühitinin bədii ifadəsi"** adlanır.

Tolerantlığın, fərqli düşüncə və əqidələrə qarşı dözümlü münasibətin müasir dünyamızda ən çox müzakirə edilən mövzulardan olduğunu desək, yanılmarıq.

Multikulturalizmin və onun ayrılmaz əlamətlərindən, əsas şərtlərindən olan tolerantlıq mühitinin formalaşmasında Azərbaycan Respublikasında əldə edilmiş böyük nailiyyətlərin bədii ədəbiyyatda inikasının konkret əsərlərin örnəyində tədqiqata cəlb edilməsi həm mövcud durumun dəyərləndirilməsinə, həm də müasir ədəbiyyatın həyat həqiqətlərinə müdaxiləsinin və onda gedən prosesləri özündə əks etdirmək səviyyəsinin aydın mənzərəsini sərgiləməyə şərait yaratmışdır.

Azərbaycan dövlətinin yürütdüyü mütərəqqi siyasətin ən prioritet yönlərindən olan tolerantlıq, multikulturalizm, mədəniyyətlərin dialoqunun bədii ifadəsini müstəqillik dövründə yaranmış ədəbi-bədii örnəklərimizdə də aydın şəkildə görə bilirik.

Tolerant əhval-ruhiyyənin ta qədimdən Azərbaycan mühitində mövcudluğunun bədii əksini müstəqillik illərində Babək haqqında yazılmış ən yaxşı əsərlərdən biri olan Akif Əlinin "Azman" və ya "Sən mənim dözümümü görəcəksən" romanında[2] görürük.

Tarixi sənədlər üzərində araşdırma aparan, uzaq dövrün hadisələrini yaradıcı bədii təxəyyülün süzgəcindən keçirən müəllif Babəkin mübarizəsinə bugünkü azad, müstəqil Azərbaycan Respublikasında bərqərar olan demokratik dünyagörüşü, multikulturalizm və tolerantlıq prizmasından baxaraq, həqiqətlərin bir daha ucadan deyilməsinə çalışmışdır. "Azman" romanı və orada təbliğ olunan yeni, tolerant cəmiyyət quruluşu sistemi, Babəkin uğrunda mübarizə apardığı azadlıq, müstəqillik, sosial ədalət ideyaları, demokratik cəmiyyət arzuları romanın tarixi hadisələrin

[1] Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 clddə, I c., 1969-1982, 1993-1996. Bakı: Nurlar NPM, 2008, s. 469.

[2] Akif Əli. Azman və ya "Sən mənim dözümümü görəcəksən"... Bakı: Renessans, 2013, 226 s.

günümüzə transformasiyası baxımından da öyrənilməyə, təqdim və təqdir edilməyə layiq əsər olduğunu bir daha sübut edir.

Azərbaycan cəmiyyətinin ta keçmiş dövrlərdən tolerant, demokratik və qadına sayğı aşılayan mühitinin təsvirinə, İsmayıl Şıxlının "Ölən dünyam" romanında da geniş süjetli hadisələr fonunda şahid oluruq.

Uzaqgörən siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyev də tolerant dəyərlərə böyük əhəmiyyət verərək deyirdi: "Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq"[1].

Dissertasiyanın **"Multikulturalizmin Azərbaycan modeli müstəqillik dövrü Azərbaycan ədəbiyyatında"** adlanan III fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə "**Azərbaycan gerçəkliyində multikulturalizmin yeri"**ndən bəhs edilir.

Azərbaycanın multikulturalizm modeli təkcə Cənubi Qafqazda, postsovet məkanında deyil, Qərbdə də diqqəti cəlb edən modellərdən biri hesab olunur. XX əsrin sonlarında Cənubi Qafqazda millətlərarası münasibətlərdə münaqişələr, millətçilik tüğyan etməyə başladı. Azərbaycan öz tolerant ənənələrinə sadiq qalaraq mədəniyyətlərarası və millətlərarası gərginliyi aradan qaldırdı və multikultural dəyərlərə malik demokratik, hüquqi dövlətə çevrildi. Qərbdə multikulturalizmdən, demokratiyadan millətçiliyə keçidin baş verdiyi, ksenofobiya, islamofobiyadan bəhs edildiyi bir zamanda Azərbaycanın multikulturalizm modeli dünyaya örnək sayılır. Ölkəmizdə multikulturalizm milli və ümumbəşəri dəyərləri, mədəni bərabərliyi, ədalət və mərhəməti, tolerantlığı, mədəni müxtəlifliyi və plüralizmi, birgəyaşayışı özündə əks etdirir. Ulu Öndər Heydər Əliyev "qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa "bağlayan" müxtəlif millətləri respublikamızın ən başlıca sərvəti kimi səciyyələndirərək yazırdı: "Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar"[2].

Özünəməxsus multikultural dəyərlərə malik qədim Azərbaycan özünü Şərqlə Qərbin, mənəvi-mədəni sərvətlərin müxtəlif sivilizasiyaları və

---

[1] Hüseynov Sakit. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, 2012, s.111.

[2] Nəcəfov Etibar. Müxtəlif ölkələrdə multikulturalizm siyasətinin müqayisəli təhlili. // Multikulturalizm: nailiyyətlər və problemlər. http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258.

mədəniyyətləri ilə birləşdirir. Buna görə də Azərbaycanın spesifik multikulturalizmi mahiyyət etibarilə xalqımızın tarixi “yol yoldaşı” olmuş, müasir dövrdə isə ölkəmizdə praktiki əhəmiyyət kəsb etmiş, demək olar ki, artıq həyat tərzinə çevrilmişdir.

Müstəqil Azərbaycanda azərbaycançılıq multikulturalizm forması kimi reallaşmışdır. Azərbaycançılıq ölkəmizdəki bütün xalqların, etnosların birgəyaşayışını, siyasi, dini, iqtisadi, sosial, mədəni plüralizmi təmin edir.

Şübhəsiz ki, multikulturalizm yalnız həyat tərzi deyil, siyasət, fəlsəfə, dialoq mədəniyyəti və ictimai psixologiyadır.

Azərbaycan gerçəkliyində multikulturalizmin yeri onunla şərtlənir ki, tarixi baxımdan azərbaycançılıq ideologiyası ilə multikultural dəyərlərin mədəniyyətdə və ədəbiyyatda təbliği, cəmiyyətdə yayılması tendensiyası eyni məqsəddə birləşir: gələcəyi formalaşdırmaq!

Motivləri qədim tarixi keçmişə gedib çıxsa da, bir ideologiya kimi XX əsrdə formalaşan azərbaycançılığın çağdaş dövlətçiliyə tətbiqi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycan əhalisində dövlətçilik duyğusunu gücləndirdi, dövlətə hörmət hissini formalaşdırmağa nail oldu. Xüsusilə 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra o, Azərbaycan dili, Azərbaycan tarixi və mədəniyyətini azərbaycançılıq məfkurəsi işığında dünyaya tanıtmaq üçün konsepsiyaların əsasını qoydu.

Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində azərbaycançılıq təkcə milli ideologiya yox, həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandı. Onun azərbaycançılıq nəzəriyyəsi sayəsində Azərbaycan dövləti çağdaş dünya inteqrasiyasında beynəlxalq diqqət mərkəzinə keçdi, sivil dövlət nümunəsi kimi həm Qərb, həm də Şərq aləmində qəbul olundu.

Çoxsaylı millət, din və konfessiyaların sülh şəraitində birlikdə yaşamasına dair uzun tarixi təcrübəsinə əlavə olaraq hazırkı siyasi-ictimai istiqaməti ilə özünəməxsus dini tolerantlıq modelini formalaşdırmış Azərbaycanın bu tarixi mirasının araşdırılmasının dünyada din, etnik kimlik və irqi münaqişələrin həllinə öz töhfəsini verəcəyi labüddür.

Azərbaycanın daxili və xarici siyasətində sülhün təmini və bərpası istiqamətində atılan mühüm addımlar, bununla bağlı olaraq millətlərarası və dinlərarası dialoqun inkişafına verilən böyük önəm sayəsində son dövrlərdə beynəlxalq aləmdə ölkəmizin dini tolerantlıq modelinin tədqiqinə, nümunə götürülməsinə və yayılmasına dair artan təkliflər müşahidə olunur.

Uzun əsrlər boyu Azərbaycan xalqının adət-ənənəsinin, ictimai şüurunun formalaşmasında böyük rol oynamış başlıca amillərdən biri kimi İslam insanlara Yaradandan ötrü yaradılmışlara qarşı şəfqət və qayğı

göstərmək, mərhəmət, günahları bağışlamaq, eyibləri və qüsurları örtmək kimi yüksək əxlaqi dəyərləri aşılamışdır.

Azərbaycanın inanc-din tarixinə nəzər salmaq kifayətdir ki, Bütpərəstlik, Zərdüştilik, Yəhudilik, Xristianlıq və İslamın tarixin müxtəlif dövrlərində ölkənin dini mozaikasına özünəməxsus çalarlar verdiyi və yerli xalqın fərqliliklərə qarşı dözümlülüyünün yaranma prosesinə şahidlik etdiyi anlaşılsın.

Mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı respublikamızda son illərdə xeyli tədbirlər keçirilmiş, beynəlxalq elmi konfranslar, genişmiqyaslı forumlar təşkil edilmişdir. Azərbaycanda bu cür tədbirlərin keçirilməsi Şərqlə Avropa mədəniyyəti arasında respublikamızın körpü rolunu oynadığını göstərən faktlardır. İki sivilizasiya arasında mədəniyyətlərin və dinlərin dialoqunun təşkil edilməsində mühüm rol oynayan Azərbaycanın beynəlxalq aləmdə nüfuzu da getdikcə artmaqdadır.

Tarixi təkamül prosesində bütün mədəniyyətlər qarşılıqlı təsir nəticəsində bir-birini zənginləşdirmişdir. Bu qarşılıqlı təsir prosesi eyni regionda yerləşən və bir-birinə qonşu olan xalqların mədəniyyətində daha çox özünü göstərmişdir. Bu fikri Azərbaycan mədəniyyətinə də aid etmək olar. Belə ki, Şərq və Qərbin qovuşuğunda yerləşən Azərbaycanın mədəniyyətinin formalaşması və inkişafında həm Şərq, həm də Qərbin təsiri tarixən özünü göstərmişdir.

III fəslin ikinci yarımfəsli **“Multikulturalizmin alternativsizliyi müstəqillik dövrü ədəbiyyatımızda”** adlanır.

Ədəbiyyatın, söz sənətinin cəmiyyətin bütün təbəqələrinin düşüncə və təfəkkür fəaliyyətinə təsiri danılmaz bir faktdır. Bütün zamanlarda ən yüksək insani dəyərlərin – səmimiyyət, xeyirxahlıq, azadlıq, ədalət və s.-nin yaranmasında ədəbi-mədəni irsin böyük rolu olmuşdur. Bu fakt bütün xalqlar və millətlər üçün dəyişməz olaraq qalır.

Bu ideyaların ən geniş yayılmasının üsullarından biri yenə də bədii söz sənətidir. İsa Həbibbəyli qeyd edir ki, “ədəbi proses ilk növbədə bədii yaradıcılıq, ədəbiyyat sahəsində gedən prosesləri, baş verən dəyişmələri, çətinlikləri və mübarizəni əhatə edən hadisədir. Ədəbiyyat və cəmiyyət münasibətləri ayrılmaz olduğu üçün ədəbi proses həm də cəmiyyətşünaslığın üzvi tərkib hissəsidir”[1].

Müstəqillik dövründə yaranan Azərbaycan ədəbiyyatının poetik örnəklərində dünyaya bütün insanların yaşadığı vahid məkan kimi

---

[1] Həbibbəyli İsa. Ədəbi Proses-2013: ənənənin bərpası və yeni mərhələ Bakı: Hədəf Nəşrləri, 2014, s. 5.

baxılması, dili, dini fərqli insanların bədii ədəbiyyata gətirilib əsərin qəhrəmanı səviyyəsinə qaldırılması artıq bir tendensiya halını almışdır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının bəşəri yazarlarından biri də Kamal Abdulladır. Yazıçının ictimai-sosial mövqeyi də sanki onun yaradıcılığını məhz bu istiqamətə yönləndirir. Kamal Abdullanın əsərlərində çox vaxt müəllifin və bizim yaşadığımız dünyanı narahat edən məsələlər yazıçı təxəyyülündə qurulan dünyaya köçürülür. Onun qəhrəmanlarının əksəriyyətinin yaşadığı coğrafi məkan, milli mənsubluğu, hətta adı belə o qədər ümumidir ki, dünyanın bütün xalqlarının dilində məhz həmin xalqın öz ədəbi sənət örnəyi kimi qəbul edilib dəyərləndirilə bilər.

Kamal Abdullanın əsərlərinin bəşəriliyini şərtləndirən xüsusiyyətlərdən biri də buradakı zaman və məkan sərhədsizliyidir. Başdan-ayağa insanı, insanlığı və İKT-nin sürətli və vüsətli inkişafı sayəsində kiçilən dünyanın üzləşdiyi problemlərin alleqorik tərzdə ifadəsindən ibarət olan "Dəvə yağışı" hekayəsində oxuyuruq: "Şirlər üçün məktəb açmaq lazımdır. Onların dilində tədris aparmaq, onların mədəniyyətini inkişaf etdirmək biz insanların irqi borcudur"[1]. Adsız-ünvansız obrazlardan birinin dili ilə deyilən və hətta cəmiyyətdə "gülüş" doğuran bu sözlər bu günümüzdə obyektiv və subyektiv səbəblərdən "yad mühit"ə düşən, başqa dil ortamında yaşamaq məcburiyyəti ilə üz-üzə qalan minlərlə insanın probleminə çevrilmişdir. Əsər tək öz milləti və xalqının problemləri ilə deyil, bəşər övladının qayğıları ilə yüklənmişdir. Obrazların adlarına fikir verək: Ana, Uşaq, Baba... İstənilən millətin və xalqın nümayəndəsi, dünyanın istənilən dilində danışan insanı onu məhz onun üçün yazılmış, onu düşünərək yazılmış əsər hesab etməkdə haqlı ola bilər. Göründüyü kimi, yazıçı əsərində neomifizmin tipik nümunəsini yaratmışdır.

Yazıçının "Parisin seçimi" hekayəsi də ideyasının qloballığı ilə fərqlənir. Hər şeydən əvvəl onu qeyd edək ki, yazıçı yunan mifologiyası qəhrəmanlarını – Zevs, Afina, Afrodita, Poseydon, Erida, Hera, Paris, kentavr Xiron - əsərinə gətirməklə bəşər təfəkkürünün ilk örnəklərinin, əslində milliyyətindən və dinindən asılı olmayaraq bədii fikrin ən erkən çağlarının ab-havasını günümüzə transformasiya etmişdir. Yəni oxucu əsəri mütaliə edərkən yunan allahlarının mövcud olduqları məkan və zamana səyahət etməkdən daha çox, onların bizim müasir zaman və məkanımızda olduqlarını hiss edir.

---

[1] Abdulla Kamal. Labirint. Bakı: Qanun, 2012, s.11.

Dünyanın gələcəyi üçün narahatlıq Kamal Abdullanın digər əsərlərində də ifadəsini tapmışdır. Məsələn, "Son gəliş" hekayəsində dünyada getdikcə artmaqda olan anlaşılmazlıqlar ağrı ilə xatırlanır.

"Paris" hekayəsində siyasi məqamlara çox incə işarələr edən yazıçı müasir dünya güclərinin idarəetmə sistemindəki hərc-mərcliyi, tərəfkeşliyi, qeyri-obyektivliyi məharətlə açıb göstərir və tənqid obyektinin görünməyən tərəflərini oxucunun diqqətinə çatdırır.

Kamal Abdulla yunan mifologiyası qəhrəmanlarını öz əsərinə gətirməklə, həm başqa mədəniyyət və başqa ədəbiyyata öz tolerant münasibətini bildirmiş, həm də bütün insanlığı düşündürən ideyanı çox uğurla təcəssüm etdirə bilmişdir. Həqiqətən də ayrı-ayrı xalqların, mədəni müxtəlifliklərin bir araya gəlməsinə bəşəriyyətin çox böyük ehtiyacı vardır və bu həyati zərurətə çevrilmişdir.

Yazıçının "Çəngəl çiçəyi" hekayəsi də bəşər tarixinin bir dönəminə səyahət etmək, insanın öz keçmişinə öyrənməsinə marağın ifadəsi baxımından diqqəti cəlb edir. Lakin hekayədə vurğulanan əsas ideya şovinizmin, qəddarlığın, insana və insanlığa düşmən kəsilməyin acı nəticələrə gətirib çıxaracağını göstərməkdir.

Müstəqilik dövrü Azərbaycan ədəbiyyatında insanların başqalaşmasının, biri-birilərinə yadlaşmalarının səbəblərini axtarır, hətta onun kökünə gedib çıxırlar. Aqşin Yeniseyin "Köhnə dünyanın kəşfi" essesində, Qan Turalının "İnsan olmanın macəra dolu qəddar tarixi" yazısında insanların özgələşməsi və bunun da nəticəsində tənhalaşması faciəsi maraqlı yozumda oxuculara təqdim olunur.

Fikrət Qoca, Məmməd İsmayıl, Vaqif Bayatlı, Ramiz Rövşən, Nisə Bəyim, Mahir Mehdi, Zirəddin Qafarlı, Saday Şəkərli və başqa müasir Azərbaycan şairlərinin əsərlərində ümumbəşəri ideyaların əksi diqqəti cəlb edir.

Multikultural və tolerant motivlər müstəqillik dövrü Azərbaycan ədəbiyyatının son illərdə yaranan nümunələrində daha bariz ifadəsini tapmışdır. Şəmil Sadiqin "Erməni qadın və Səməd Vurğun" hekayəsi sözün əsl mənasında böyük sevgi hissinin yaşaması üçün millətindən, dinindən asılı olmayaraq, böyük ürəyə sahib olmağın kifayət etdiyinin ifadəsinə həsr olunmuşdur.

Kamil Əfsəroğlunun "Sibir toyu" hekayəsində Vətəndən kənarda, yad mədəni-mənəvi duruma düşən soydaşlarımızın daxili transformasiyaya məruz qalması açıqlanır.

Azərbaycan ədəbiyyatında multikultural ideyaların təbliğindən danışarkən Məmməd Orucun "Kiyevli Oksana" hekayəsindən də bəhs

etmək lazımdır. Müəllifin hekayədə gəldiyi qənaət budur ki, sevginin, xoş duyğuların dili bütün insanlar üçün eynidir.

Azərbaycan ədəbiyyatında bəşəri ideyaların, əbədi mövzuların bədii təcəssümünü Anarın "Göz muncuğu" povestində özünəməxsus ifadəsi ilə qarşılaşırıq.

Son illərdə yazılan və multikultural dəyərlərin uğurlu ifadəsi baxımından Səxavət Talıblının "Adəmin övladları" romanını da maraqlı bir nümunə kimi qeyd etmək olar.

Azərbaycanda multikulturalizm ideyalarının yayılmasında və bunun xalqımız üçün doğma bir amal olduğunun əyani sübutunda önəmli hadisələrdən biri "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının işıq üzü görməsi oldu.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat boyunca deyilən fikirlər, aparılan təhlillər və əldə edilmiş qənaətlər ümumiləşdirilmişdir. Dissertasiyada mühüm nəticələr əldə edilmişdir:

- müstəqillik dövründə Azərbaycan ədəbiyyatında yaranmış bədii nümunələr müxtəlif tədqiqatlarda öyrənilsə də, birbaşa bu əsərlərdə multikulturalizm ideyalarının, tolerantlıq əhvali-ruhiyyəsinin, yaşam tərzinin bədii ifadəsinin işlənmə səviyyəsi və onun müasir dövrdə gedən qlobal problemlərin həllinə təsiri məsələsi ayrıca ilk dəfə bu tədqiqatda öyrənilir. Bu dövrdə yazılmış ayrı-ayrı əsərlərdə multikultural dəyərlər haqqında müxtəlif səviyyəli, elmi, elmi-publisistik məqalələr yazılsa da, mövzu ilk dəfə məhz filologiya üzrə fəlsəfə doktorluğu tədqiqatı səviyyəsində elmi araşdırmaya cəlb edilmişdir;
- tədqiqatda ilk öncə Azərbaycan gerçəkliyində multikulturalizmin yeri və rolu məsələsinə aydınlıq gətirilmişdir;
- etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin sayəsində bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik, bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər;
- multikulturalizm dünyagörüşünün bu gün Azərbaycan cəmiyyəti tərəfindən çox məmnunluqla qəbul edilməsinin köklərini xalqımızın bədii düşüncə xəzinəsində, əxlaqi dəyərlərində, genetik yaddaşında, tarixi həyat tərzində axtarmaq lazımdır. Tolerantlığın ədəbi təfəkkürümüzün tarixinə əsaslandığı qənaəti artıq təsdiqini tapmış faktdır;
- türkdilli xalqların, o cümlədən Azərbaycan mədəniyyətinin zənginləşməsi və inkişafında milli və ümumbəşəri dəyərlərin vəhdəti əsas

rol oynamışdır. Azərbaycan mədəniyyətinin daxili strukturunda nüvəsini məhz milli və ümumbəşəri dəyərlər təşkil edir. Milli-mənəvi dəyərlər xalqımızın tarixən formalaşdırdığı fenomendirsə, ümumbəşəri dəyərlər – müxtəlif etnoslar, xalqlar və millətlərin formalaşdırdığı mədəni-sivil sərvətlərdir. Eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət olan multikulturalizm də ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmoniyasına yönəldilmişdir. Bütün deyilənləri ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, həmişə olduğu kimi, bu məsələdə də bədii ədəbiyyata mühüm ictimai təbliğat vasitələrindən biri kimi yanaşılmalı, tolerantlıq və sosial ədalətin təbliğində onun əsas tərbiyəedici funksiyasından istifadə edilməlidir;

- humanist dəyərlərin zənginləşməsində və yayılmasında multikulturalizmin rolu danılmazdır və bu ideyaların Azərbaycan ədəbiyyatında zəngin ənənələri vardır;

- Azərbaycan ədəbiyyatında tarixən və xüsusən də müstəqillik dövründə yaranmış poetik söz nümunələrinin təhlili göstərdi ki, bədii əsərlər tolerantlıq və sosial ədalət təbliğinin mühüm vasitələrindən biridir;

- müstəqillik dövründə yaranan Azərbaycan ədəbiyyatında ölkəmizdəki tolerant mühit hərtərəfli məqamları ilə və müxtəlif məzmunlu əsərlərdə yaradılan rəngarəng obraz və olaylar vasitəsilə təqdim edilmişdir;

- hazırkı sürətlə qloballaşma şəraitində dünyanın xilası üçün multikulturalizmin alternativsiz istiqamət olması müstəqillik dövrü ədəbiyyatımızda oxuculara həssaslıqla çatdırılmışdır;

- müstəqillik illərində Azərbaycanda yaranan ədəbi-bədii nümunələrin öyrənilməsi bir daha göstərir ki, ədəbiyyatımızın başlıca məramı azərbaycançılıqdır və bu dövrdə də yazılmış əsərlər məhz tolerantlığı və multikulturalizmi də özündə ehtiva edən bu ideologiyaya köklənmişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı məqalələrində və iştirak etdiyi respublika və beynəlxalq konfransların materiallarında öz əksini tapmışdır:**

1. Azərbaycan ədəbiyyatında multikulturalizm ənənələri (N.Gəncəvinin “Yeddi gözəl” poeması əsasında) // Pedaqoji Universitetin xəbərləri, 2015, №2, s. 276-280.
2. Multikulturalizm dünyagörüşü: bədii düşüncədən dövlət siyasətinə / Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, Bakı: 2016, s. 68-70.
3. Birinci Türkoloji qurultayda multikultural mühit / I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş I Türkoloji Qurultayın türk xalqlarının mədəni-mənəvi birliyinin yaradılmasında rolu mövzusunda Respublika elmi-praktik konfransının materialları, Bakı: 2016, s.125-131.
4. The Azerbaijani model of the multiculturalism and the role of the literary thought in its formation // Scientific and practical journal Philological knowledges, 2016, №4, p. 40-46.
5. Bədii ədəbiyyat-tolerantlıq və sosial ədalət təbliğinin mühüm vasitələrindən biri kimi // Pedaqoji Universitetin xəbərləri. Humanitar elmlər seriyası, 2017, c. 65 (4), s. 87-94.
6. Müstəqillik dövrü ədəbiyyatımız və multikulturalizmin alterativsizliyi // Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, 2018, №1 (105), s.279-283.
7. Multkulturalizmin Azərbaycan gerçəkliyində yeri və rolu / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. Bakı: 27-28 aprel 2018, s.1658-1659.
8. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında multikulturalizm məsələləri / AXC və Qafqaz İslam Ordusunun Yaranmasının 100 illiyinə həsr edilmiş IV Uluslararası Türk Kültür Coğrafiyasında Egitim və Sosial Bilimlər Sempozyumu, Bakı: 27-30 iyun, 2018, s. 119-121
9. Azərbaycan ədəbiyyatında multikultural meyillər // Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri. Sosial və humanitar elmlər bölməsi, c.14, 2018, №3, s. 37-40

**Севиндж Бабир кызы Кулиева**

# Художественное отображение мультикультурализма в азербайджанской литературе в периоде независимости

## РЕЗЮМЕ

Диссертация посвящена художественному отображению мультикультурализма в азербайджанской литературе в периоде независимости и состоит из введения, трех глав, заключения и списка использованных источников.

Во «Введении» обосновывается актуальность темы, анализируется степень ее исследованности, определяются объект и научная основа диссертации. Помимо этого, выявляются основная цель работы и методы, ведущие к ее достижению, раскрываются теоретико-методологические основы диссертации, обосновываются научная новизна, практическое значение исследования и дается краткая информация о структуре.

I глава, именуемая «Мультикультурализм и его традиции в азербайджанской литературе» состоит из двух полуглав. В I полуглаве «Понятие мультикультурализма в мировой социально-философской мысли» приводится общая информация о предмете исследования, описывается исключительная роль идей толерантности, плюрализма, мультикультурализма в истории человечества. Во II полуглаве названной «Роль мультикультурализма в обогащении и распространении гуманистических ценностей и его традиции в азербайджанской литературе», рассматривается вопросы, связанные с общемировым значением ценностей, опирающихся на мультикултурализм и толерантность. Наряду с этим, концентрируется внимание на духовно-национальных особенностях азербайджанского народа, являющегося частью исламской цивилизации и на весьма успешном отражении в национальной литературе элементов, имеющих непосредственное отношение к мультикультурализму и толерантности.

II глава диссертации, которая называется «Художественное отображение ценностей, связанных с мультикультурализмом и толерантностью» также состоит из двух полуглав: «Толерантность и социальная справедливость как основные принципы мультикультурализма» и «Художественное отображение толерантной среды в азербайджанской литературе в периоде независимости». Во второй

главе были рассмотрены вопросы передачи нынешнему поколению толерантного настроя, мультикультурального мировоззрения, которые были развиты в самых различных формах современной Азербайджанской литературы с национальными ценностями.

III глава диссертации, называемая «Азербайджанская модель мультикультурализма в национальной литературе в периоде независимости» состоит из двух полуглав: «Место мультикультурализма в азербайджанской действительности», «Безальтернативность мультикультурализма в литературе периода независимости». Это глава посвящена освещению модели мультикультурализма Азербайджана в Азербайджанской литературе в периоде независимости, как одной из моделей, привлекшей внимании и на Западе. Показано как форма мультикультурализма, пропаганда в культуре и литературе мультикультуральных ценностей с идеологей азербайджанства и тенденции распространения в обществе.

В «Заключении» диссертационной работы обобщаются основные результаты исследования.

Диссертационная работа завершается списком используемой литературы.

**Sevinj Babir gizi Guliyeva**

## Literary reflection of multiculturalism in the Azerbaijani literature of the period of independence

### SUMMARY

The thesis is dedicated to the literary reflection of multiculturalism in Azerbaijani literature of the period of indepence and consists of an Introduction, three chapters, conclusion and references.

The Introduction gives proof of subject's topicality, examines the level of study on the theme and determines the work's object and scientific sources. At the same time, the key goal of the thesis and tasks established to obtain the specified goals and the theoretical-methodological bases are determined, the scientific novelty and practical importance of the thesis are substantiated and is given short information its structure.

The first chapter called "Multiculturalism and its traditions in Azerbaijani literature" consists of two subchapters. The first subchapter styled as "The definition of multiculturalism in the world social and philosophical thoughts" provides general and detailed information about the subject of the study and the exceptional role played by tolerance, pluralism and ideas of multiculturalism in the history of humanity is explained. As to the second subchapter, it is called "The role of multiculturalism in enriching and propagation of humanist values and its traditions in the Azerbaijani literature", which touches upon the problems, such as, the universal character of multicultural and tolerant values and reflection of these values in Azerbaijani literature, an integral part of the Islamic world, preserving its spiritual qualities and other qualities pertaining to our people.

The research in the second chapter called "Literary reflection of multiculturalism and tolerance values in the Azerbaijani literature of the period of independence" is conducted on two directions: "The tolerance and social justice as main principles of the multiculturalism" and "Literary expression of the tolerant environment in the Azerbaijani literature of the period of independence". The second chapter deals with the issues of transferring tolerant mood and multicultural world outlook to the present generation which were developed in diversed forms of modern Azerbaijan literature with national values.

The third chapter of the thesis is called "The Azerbaijani model of the multiculturalism in the Azerbaijani literature of the period of independence". This chapter consists of two subchapters: "Place of

multiculturalism in the Azerbaijani reality", "Uniqueness of multiculturalism in the Azerbaijani literature of the period of independence". The chapter is devoted to the explanation of the Azerbaijan multiculturalism model in the Azerbaijan literature during the period of independence, which is referred as one of the models attracting attention also in the West. Considered Azerbaijanism as the form of multicultural values, propaganda in culture and literature multicultural values with ideology of Azerbaijanism and tendencies of their spread in the society.

In the "Conclusion" sums up the main finding of the research.

The thesis is completed with list of used literature.

Tiraj 100. Format 60x84 1/16

---

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖЕВИ**

*На правах рукописи*

**СЕВИНДЖ БАБИР кызы КУЛИЕВА**

# ХУДОЖЕСТВЕННОЕ ОТОБРАЖЕНИЕ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ В ПЕРИОДЕ НЕЗАВИСИМОСТИ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ- 2018**